

*Qürurla anırıq*

# Milli Qəhrəman Təbriz Xəlilbəyli



***Birinci Qarabağ müharibəsində Vətən torpaqlarının bütövlüyü uğrunda düşmənlə üzbəüz mövqedə şücaətlə döyüşərək, şəhadətə qovuşan Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəyli 1964-cü il fevralın 12-də Bakıda - Xalq şairi Xəlil Rza Ulutürkün ailəsində dünyaya göz açıb.***

**1981-ci ildə Bakı şəhəri M.Müşfiq adına 18 saylı orta məktəbi bitirən Təbriz 1982-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olur. Təhsilini kütləvi tamaşalar üzrə rejissor fakültəsində qiyabi yolla davam etdirməklə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında işıqçı işləyir. İncəsənətə meyilli olan Təbriz kiçik yaşlarından musiqi ilə məşğul olur. Pianinoda ifa etməyi bacarır, rəsmlər çəkirdi.**

1988-ci ildən başlayaraq ermənilərin Azərbaycana təcavüzü və torpaq iddiaları Təbrizi gecə-gündüz rahat buraxmırdı. O, bütün varlığı ilə cəbhəyə getməyə can atırdı. 1991-ci ilin son aylarında o, Qarabağ uğrunda ölüm-dirim mübarizəsinə qatılır.

Ölkəmizin hər bir ərazisi Təbriz üçün doğma, əziz idi. O, bəlkə də üzünü görmədiyi, təbiəti ilə tanış olmadığı Şuşanı, Laçını, Kəlbəcəri daha çox sevirdi. Silahdaşlarını dözümlü, cəsarətli olmağa ürəkləndirərdi. Onun qanında, varlığında düşmənə nifrət, kin vardı. Cəbhə bölgəsinə gəlməsindən az müddət sonra Təbriz kəşfiyyat əməliyyatlarına, hücum döyüşlərinə qoşulur.

Təbriz qısa döyüş yolu keçsə də, yoldaşları arasında böyük nüfuz və hörmət qazanmışdı. Onu cəsur bir döyüşçü kimi tanıyırdılar. Xromort və Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə o, dəfələrlə qəhrəmanlıq nümunəsi göstərmişdi. Təbriz Xəlilbəyli neçə-neçə yaralı əsgəri atəş altından çıxarmış, düşmənin xeyli canlı qüvvəsini məhv etmişdi.

1992-ci il yanvarın 31-i Təbriz Xəlilbəylinin son döyüşü oldu. O, Şuşanın mühasirədən çıxarılması üçün təşkil edilən Daşaltı Əməliyyatı zamanı qəhrəmancasına həlak oldu. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edildi. Bakı şəhərində və Salyan rayonunda küçələrdən biri onun adını daşıyır. Xüsusi məqsədlər üçün istifadə olunan bir gəmi onun şərəfinə adlandırılmışdır. Yaşadığı evin qarşısına xatirə lövhəsi vurulmuşdur.

Xəlil Rza Ulutürk Təbrizin dəfnində çıxış edərək demişdir: "Mən şəhid olmuş oğlum Təbrizin yastıq yoldaşı Sevinc xanımı təbrik edirəm! Onun Təbrizi vətənin müqəddəs torpağı uğrunda can verdi. Onun ölümü pak və müqəddəs ölümdür. Eşq olsun belə ölümə!".

Anası Firəngiz xanım isə xatirələrində demişdir: "Xəlil uşaqlarımızı da Vətənə sevgi ilə böyütmüşdü. Şeirlərində olduğu kimi, onları doğma torpaq uğrunda ölməyə hazır olmağa səsləyərdi. Elə onun bu öyüdü baş tutdu. Təbriz şəhid oldu. Xəlil isə sınmadı, oğlumun qəbiri üstündə mənə dedi ki, "Firəngiz gözün aydın, oğlumuz torpağı üçün şəhid olub". O, bunları desə də, çox sarsılmışdı. Elə ölənə qədər də öz acısını içində çəkə-çəkə yaşadı".

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Xəlilbəyli Təbriz Xəlil Rza oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. 2020-ci ildə Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" kinostudiyasında "Ulu türkün Təbrizi" sənədli film çəkilmişdir. Bu ekran əsəri Milli Qəhrəman Təbriz Xəlilbəyliyə həsr olunan ikinci sənədli filmdir. Filmdə Təbriz Xəlilbəylinin ömür və döyüş yolu haqqında yeni və maraqlı məqamlar əksini tapmışdır.

**M.MİRZƏ,**
**"Respublika".**